BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2015

UOT 82-1;82-2

# MİRZƏ ƏLƏKBƏR SABİR YARADICILIĞI ƏZİZ MİRƏHMƏDOVUN ARAŞDIRMALARINDA

**F.A.AĞAZADƏ**
***Bakı Dövlət Universiteti***
***Fira_cabbarova@mail.ru***

*Məqalə, böyük ədəbiyyatşünas Əziz Mirəhmədovun ədəbi elmi irsində məşhur satirik şairimiz Mirzə Ələkbər Sabir haqqında əsərlərindən bəhs edir. Burada tədqiqatçı alimin, Sabirin yaradıcılığına dair fikirlərinə aydınlıq gətirilmiş, həmçinin şairin əsərləri mövzusuna görə qruplaşdırılmış elmi-nəzəri təhlilə cəlb olunmuşdur.*

**Açar sözlər**: satira, realizm, qadın hüquqsuzluğu, tənqid, yaradıcılıq

Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri zəngin qələm təcrübəsinə malik, böyük tədqiqatçı Əziz Mirəhmədovdur. Ə.Mirəhmədovun əsərlərini nəzərdən keçirəndə görmək olur ki, ədəbiyyatımızın böyük klassikləri – N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, A.Bakıxanov, M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ə.Ağaoğlu və başqa bir çox nümayəndələri onun yaradıcılığının tədqiqat obyekti olmuşdur. Onlardan biri də məşhur satirik şairimiz M.Ə.Sabirdir. Tədqiqatçı M.Ə.Sabirin həyat və yaradıcılığından bəhs edən «Sabir» (1953), eləcə də rus dilində nəşr olunan «Плачущий смехач» (1989) kitablarının və bir çox məqalələrin – «Böyük ustadın yolu» (1946), «Böyük şair-demokrat» (1946), «Böyük Azərbaycan şairi» (1951), «Canlı sənət» (1952), «Sabir yaradıcılığında xalq mövzusu» (1956), «Böyük xalq şairi» (1957), «Sabirin arzuları» (1957), «Sabir haqqında» (1961), «İnqilabçı satirik» (1962), «Sabirin klassik irslə əlaqəsinə dair» (1970) və s. əsərlərin müəllifidir.

Alimin M.Ə.Sabirə dair monoqrafik kitablarında şairin həyat və yaradıcılığından bəhs edilir. Onun "Sabir" əsərinin "Sabir realizminin ideya-bədii mənbələri və tarixi kökləri" fəslində və «Böyük xalq şairi», «Sabirin klassik irslə əlaqəsinə dair» adlı məqalələrində, adından da məlumdur ki, müəllif M.Ə.Sabir realizminin kökləri haqqında geniş təhlillər aparmış, sonda doğru olaraq bu qənaətə gəlmişdir: "Azərbaycan klassik ədəbiyyatı, şifahi xalq şeiri, bolşevik mətbuatı, qabaqcıl rus ictimai fikri və ədəbiyyatı, xüsusilə XIX-XX

əsrlərdə Azərbaycanda qüvvətli bir cərəyan halı almış olan realist satira – Sabirin qida mənbələri bunlardır” (1, 91).

Tədqiqatçı Sabirin klassik ədəbiyyat nümayəndələrindən Nizami, M.Füzuli və Seyid Əzimlə çox bağlı olduğunu yazır. Sabirin yaradıcılığına və dünyagörüşünün inkişafında bu yazıçı və şairlərin təsirini açıqlayan tədqiqatçı alim konkret, dəqiq faktlarla öz mülahizələrini təsdiqləyir. Yəni Sabirin “Qəm yemə”, “Səbr eylə” şeirlərində zülmə dözməmək məsələsi, Nizaminin daima “Çiynində tut yarağını” fikirləri ilə, yaxud “İskəndərnamə”də utopik azadlıq və bərabərlik ideyası Sabirin “yaşasın şəhriyari-hürriyyət” şeiri ilə səslənməkdədir. Eləcə də, İranın Nuşirəvan, Dara kimi hökmdarlarını tənqid edən Nizami kimi Sabirin də Məmmədəlişahları satira atəşinə tutması və qadın azadlığı məsələsi hər iki şairin yaradıcılığında ortaq cəhət kimi qeyd olunur. Ədəbiyyatşünas Sabir yaradıcılığına S.Əzimin təsirini hər ikisinin mülkədarları, bəyləri, çinovnik və ruhaniləri ifşa etməsində görür. Eyni zamanda Ə.Mirəhmədov Sabirin “Molla Nəsrəddin” ədəbi məktəbinin nümayəndəsi kimi Füzulidən bəhrələndiyini, “Leyli və Məcnun”, “Bakı pəhləvanlarına”, “Ah eylədiyim” əsərlərini məhz Füzuli təsirilə yazıldığını bildirir.

Ə.Mirəhmədov qeyd edir ki, ilk dəfə M.F.Axundzadə tərəfindən ədəbi məktəb səviyyəsinə qaldırılan realizm və satiranın kökləri qədim dövrlərə - Nizamiyə, xalq yaradıcılığına gedib çıxır. Xalq yaradıcılığının satiraya təsirini Ə.Mirəhmədov bu cür yazır: “Varlığa ayıq, tənqidi münasibət şifahi xalq poeziyasında ictimai motivlərin, realizmin, demokratik ideyaların qüvvətlənməsinə kömək etmiş, bir çox hallarda lirikanın üzvi surətdə satira ilə birləşməsinə səbəb olmuşdur. Lakin tədqiqatçı daha çox M.F.Axundovun rolunu müstəsna qeyd edir. Realizm, satira, gülüş məsələlərinə dair fikirlərini müxtəsər nəzərdən keçirdikdən sonra yazır ki, Sabirin M.Fətəli ilə nə dərəcədə tanış olduğu problem olaraq qalsa da, müəllimi S.Əzimdən, eləcə də “Molla Nəsrəddin”in redaktoru C.Məmmədquluzadədən dahi yazıçı haqqında çox şey öyrənə biləcəyi ehtimalı böyükdür.

Ədəbiyyatşünas kitabın «Sabir və XX əsr Azərbaycan ədəbiyyatında satiranın bəzi məsələləri» fəslində, «Böyük Azərbaycan şairi» və «Böyük xalq şairi» məqalələrində şairin ədəbiyyata aid görüşlərini aşağıda verilən – “Təraneyi-şairanə” (1907), “Nə yazım?” (1908), “Ey alnın ay...” (1910), “Taziyanə № 27” və s. şeirləri ilə geniş şəkildə əks etdirmişdir. Tədqiqatçı Sabirin bir sıra prinsiplərini - ədəbiyyat yarandığı tarixi dövrün inikası olmasını, ədəbiyyatda tənqidi cəhəti, satiranı inkişaf etdirmək lazımlığını, tendensiyalılıq prinsipini əsas tutması, realizm və həqiqətpərəstliyin yaradıcılığın başlıca şərti olmasını irəli sürdüyünü aydın şəkildə şərh etmişdir.

Ə.Mirəhmədova görə, “Molla Nəsrəddin” jurnalının Sabirə müsbət təsiri olduğu halda, öz növbəsində Sabir yaradıcılığının da bu jurnala böyük təsiri olmuşdur. Bu fikri yekun olaraq ədəbiyyatşünas alim belə verir: ““Molla Nəsrəddin” Sabirin dünyagörüşünün, dil və üslubunun, yaradıcılıq metodunun formalaşıb kamilləşməsində əsas rol oynadığı kimi, öz növbəsində Sabirin inqilabi satirası, poeziyasındakı dərin həyatilik, tipiklik, xəlqilik də mollanəsrəddinçilərin

inkişaf etdirdikləri inqilabi-demokratik satiraya böyük təsir göstərirdi" (1, 107).

Tədqiqatçı Sabirin əsərlərini mövzularına görə qruplaşdıraraq təhlil edir. Sabir yaradıcılığında əsas mövzu xalq, fəhlə hərəkatı və kəndli həyatına həsr edilmiş şeirlərini xüsusi vurğulayaraq onları nümunə kimi verir: şərq məsələsi, gerilik – "Sən beləsənmiş balam...", "Vay vay", "Nə yaman...", "Dindirir əsr bizi...", fəhlə hərəkatı və fəhlə məsələsinə "Bakı fəhlələrinə", "Fəhlə", "Təraneyi-əsilanə", kəndli həyatı, aclıq mövzusuna – "Əkinçi", "Ağlaşma", "Mahi Ramazandır", "Səbr elə", "Dilənçi" və s. əsərlərində Ə.Mirəhmədov Sabirin bəzən xalqa müraciət etməsini, bəzən özü təsvir üsuluna keçməsini, bəzən də monoloq və dialoqlardan istifadə edərək ideya, məzmun və formaca orijinal əsərlər yaratmasını xüsusi vurğulayır.

Ə.Mirəhmədov şairin çarizm və burju-mülkədar quruluşunu ifşa edən əsərləri içərisində burjua cəmiyyətini tənqid edən tipləşdirmə, ümumiləşdirmə əsasında qurulmuş "Bir məclisdə on iki kişinin söhbəti"ndə Zakir və Axundov ənənələrini davam etdirdiyini yazır. Çarizmə qarşı "Beynəlmiləl", "İstiqlalımız lağlağıdır", "Millət deyir ki", "Yuxu", milli burjuaziyanın xalqa zülmünü tənqid edən "Millət necə tarac olur-olsun", "Vermirəm a!", "Paradır", "Canın çıxsın!" və s. əsərlərində Sabir realizminin inqilabi mahiyyətdə olduğunu təsdiqləyir.

Şairin mədəni həyat uğrunda "Çapma atını", "Adətimiz daş idi", "Tərpənmə amandır", "Bakı pəhləvanlarına", ailə, əxlaq, tərbiyə, qadın hüquqsuzluğu məsələsi "Küpəgirən qarının qızlara nəsihəti", "Ay nənə, bir qırmızısaqqal kişi", "Gavur qızı", "Qoyma, gəldi!", "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" və s., maarif, məktəb, müəllim, uşaq şeirləri – "Uçitellər", "Baş tutdu", "Təşəkkür", "Neyçün məktəbə rəğbətim olmayıb", "Məktəb uşaqlarına töhfə", "Ağaclarn bəhsi", "Yaz günləri", "Uşaq və buz" şeirlərini misal göstərib mövzuya uyğun olaraq təhlil edir.

Dinə dair şeirlərinə gəlincə dövrün digər Sabir tədqiqatçıları Cəfər Xəndan və başqaları Sabiri ateist adlandırsalar da, Ə.Mirəhmədov bu fikrə qarşı çıxır, onu ateist şair adlandırmağın doğru olmadığını sübut edir. Tədqiqatçı qeyd edir ki, Sabir dinə aid əsərlərinin bir qismində - "Eydi-mövludi-nəbi", "Təəssüratım", "Növhə", "Mən ləm yəşkurullah" adlı şeirlərində islam dininə müsbət fikirlər irəli sürmüş, bəzilərində - "Bir bölük", "Ey xacə", "Vaiz", "Aç dilini, yum gözünü, Zahida!", "Ey vay" və s. şeirlərində din nümayəndələrinin özbaşınalığını, xalqı qəflət yuxusuna verməyini tənqid etdiyini bildirir.

Ə.Mirəhmədov şairin beynəlxalq irticaya qarşı mübarizə, İran və Türkiyə inqilabları haqqında şeirləri sırasına daha çox İrana dair əsərlər yazdığını bildirir. Həmin şeirlərdə Sabiri bir tərəfdən İranda şah despotizmi, ərbabların özbaşınalığı, xarici kapitalın İrana soxulması, digər tərəfdən də xalqın hüquqsuzluğunu, ölkənin siyasi, iqtisadi, mədəni geriliyini düşündürdüyünü yazır. İran mövzusunda "Mirhaşım Təbrizi", "Bura say", "Səttərxana", "Hə, de görüm", "Nolur şirinməzaq etsə" – İran inqilabını əks edir, mütləqiyyətin tənqidi, şahın ifşası "İran özümündür", "Satıram", "Doğrudan da, Məmdəli", "Avropada Məmdəlinin eşqbazlığı", "Əhli İranda yenə", "Amma millət a!", "Səbəb

boynu yoğun oldu” kimi əsərlərində inqilabi fikirlərini əks etdirdiyini yazır. O, Sabirin Türkiyə inqilablarına dair cəmi üç – “Hərçənd əsirani-qüyudati-zamanız”, “Yatmayın, Allahı sevərsiz!”, “Mənimki belə düşdü” adlı satiralarını yazdığını və bu əsərlərdə Türkiyə inqilabının bir sıra müsbət cəhətlərini işıqlandırdığını, zəhmətkeş xalqa rəğbət bəsləyən Sabirin onları ayıq olmağa səslədiyini, hakim dairələrin isə özbaşınalığını, müstəmləkəçiliyini, irticanı tənqid atəşinə tutduğunu qeyd edir.

Sabir satirasında müsbət ideal və inqilabi pafos məsələsinə gəlincə ədəbiyyatşünas alim bir nəzəriyyəçi kimi çıxış edərək şair satirasının özünəməxsusluqlarını göstərir. Onun qeydinə görə satirik əsərlərini yüksək ictimai ideallarla yazıb-yaradan Sabir tənqidi tənqid xatirinə, inkarı inkar xatirinə yox, şəri xeyir naminə, könəliyi yenilik naminə tənqid edirdi. Tədqiqatçı alim Sabir yaradıcılığında romantizmlə realizm ünsürlərinin birləşdiyini – romantik xəyal isə onun idealı formasında özünü göstərdiyini yazır. Bu ideal onun əsərlərində əsasən üç şəkildə təzahür etdiyini: bir qismi mənfiliklərin ifşa və inkarı - satiralarını bura daxil edir. İkinci qismi idealın özü bədii surətlə tərənnüm edilir – buraya “Ruhum”, “Ey dilbəri hürriyyət”, “Səttərxana”, digər qismi isə tənqidi, satirik momentin müəllifin arzu və idealını ifadə edən lirik momentlə üzvi birləşməsi – buraya “ Fisincan”, “İstiqbal bizimdir”, “İstiqbalımız lağlağıdır” və s. əsərlərində öz əksini tapdığını bildirir.

Ə.Mirəhmədova görə, Sabir realzimi ideya və məzmunca inqilabi pafosdadır. Bu inqilabi pafosun Sabir əsərlərində iki şəkildə meydana çıxdığını yazır: əsərlərinin bir qismi cəmiyyətdəki yaramazlıqları təsvir edərkən yaranır, digəri bu yaramazlıqlardan şairin çıxardığı nəticədəki inqilabi pafosdur ki, şairin satirik dil ilə ifadə etdiyi inqilabi çağırış adlandırır. İkinci qismə xüsusi diqqət verən ədəbiyyatşünas buraya “Mahi-Kənanın batıb”, “Neylərdin ilahi?!” və “Töhmeyi-nəhar” əsərlərini misal göstərərək təhlil etmişdir. Eləcə də Sabir yaradıcılığında 1907-1910-cu illər ezop dilindən istifadəni xüsusi qeyd edərək “Eylə bilirdim ki...” əsərini buna nümunə göstərir. Sabir satirasının realist mahiyyətini təmin edən köhnəliklə yeniliyin mübarizəsi üzərində qurulan həyatı konfliktlərin əsas şərt olduğunu bildirir.

Tədqiqatçı Sabir poeziyasının xalqımız, o cümlədən İran, Türkiyə və digər xalqların həyat və yaradıcılığına müsbət təsirini xüsusi vurğulayaraq geniş təhlillər aparır. «Böyük ustadın yolu» məqaləsində ədəbiyyatşünas alim şairin yaratdığı Sabir məktəbindən və onun davamçılarından bəhs edir. Sabir məktəbinin nümayəndələri Ə.Mirəhmədov üç qrupa bölür: Birinci qismə Sabirdən həm ideya – mövzu, həm də bədii üslub, sənətkarlıq baxımından öyrənərək şairin ənənələrini bacarıqla davam etdirənlər – Ə.Nəzmi, Ə.Qəmküsar, M.Möcüz, M.C.Pişəvəri, Ə.Lahuti və başqaları, ikinci qismə yaradıcılığının müəyyən dövründə Sabirə meyl edənlər – C.Cabbarlı, qismən A.Şaiq, A.Səhhət, S.Ə.Gilani; sonuncular isə Sabirdən ancaq forma xüsusiyyətlərini mənimsəyən, ideya – mövzu cəhətdən təqlidçi olan şairlər – buraya daxil olan bəzi Cənubi Azərbaycan və fars ədəbiyyatı nümayəndələrini təhlil edir. Sonda təd-

qiqatçı Sabirin ədəbiyyat və incəsənətdə rolunu xüsusi göstərərək onu dünənin, bugünün və sabahın şairi adlandırır (1, 317).

Beləliklə, Ə.Mirəhmədovun Sabirin yaradıcılığına dair elmi irsində marksist-leninçi görüşlərin təsirini görmək mümkün olsa da, bütövlükdə tədqiqatçı böyük satirikin fəaliyyətinə daha obyektiv yanaşmış, düzgün, dəqiq faktlara əsaslanan elmi-nəzəri müddəalar irəli sürmüşdür.

### ƏDƏBİYYAT


1. Mirəhmədov Əziz. Sabir. Bakı: Azərbaycan SSR EA, 1958, 444 s.
2. Mirzə Ələkbər Sabir. Hophopnamə. 2 clddə. I c., Bakı: Şərq-Qərb, 2004, 480 s.
3. Mirzə Ələkbər Sabir. Hophopnamə. 2 clddə. II c., Bakı: Şərq-Qərb, 2004, 384 s.
4. Mirəhmədov Əziz. Böyük ustadın yolu. «Ədəbiyyat» qəz., 1946, 22 iyul, №11.
5. Mirəhmədov Əziz. Böyük şair-demokrat. «Azərbaycan gəncləri» qəz., Bakı, 1946, 25 iyul, №60.
6. Mirəhmədov Əziz. Böyük Azərbaycan şairi. «Kommunist» qəz., Bakı, 1951, 25 iyul, №113.
7. Mirəhmədov Əziz. Canlı sənət. «Ədəbiyyat» qəz., 25 may, 1952, №15.
8. Mirəhmədov Əziz. Sabir yaradıcılığında xalq mövzusu. «Ədəbiyyat və incəsənət» qəz., 1956, 22 iyul, №30.
9. Mirəhmədov Əziz. Sabirin arzuları. «Azərbaycan müəllimi» qəz., 1957, 30 may, №22.
10. Mirəhmədov Əziz. İnqilabçı satirik. «Azərbaycan kommunisti» jurnalı // 1962, №5, s.48-55.
11. Mirəhmədov Əziz. Sabirin klassik irslə əlaqəsinə dair / «Azərbaycan dili və ədəbiyyat tədrisi» məcmuəsi, 1970, I buraxılış, s.60-69.
12. Cəfər Xəndan. Sabir. Bakı: SSRİ EA Azərbaycan, 1940


### ТВОРЧЕСТВО МИРЗА АЛЕКПЕР САБИРА В ИССЛЕДОВАНИЯХ АЗИЗА МИРАХМЕДОВА


**Ф.А.АГАЗАДЕ**


### РЕЗЮМЕ


Статья рассказывает о произведениях знаменитого сатирического поэта Мирза Алекпер Сабира, которые имеют место в литературно-научном наследии великого литературоведа Азиза Мирахмедова. Здесь разъяснялись мысли о творчестве Сабира. Произведения поэта были сгруппированы по теме и вовлечены в научно-теоретический анализ.



**Ключевые слова:** сатира, реализм, права женщин, критика, творчество


### MIRZA ALAKBAR SABIR'S CREATIVITY IN AZIZ MIRAHMADOV'S RESEARCH


**F.A.AGHAZADEH**


### SUMMARY


The article deals with the great literary critic Aziz Mirahmedov's works about famous satiric poet Mirza Alakbar Sabir. The explorer-scientist′s views about Sabir′s work are analyzed. The poet′s plays have been subjected to the scientific theoretical analysis.



**Key words:** satire, realism, women's rights, criticism, creativity